**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

Əlyazması hüququnda

**MİNAXANIM İSMAYIL QIZI BABAYEVA**

# AZƏR DADAŞOVUN KAMERA MUSİQİSİNİN ÜSLUB XÜSUSİYYƏTLƏRİ

**6213.01 – Musiqi sənəti**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2015**

Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Ülviyyə İsmayıl qızı İmanova**
Azərbaycan Respublikasının Əməkdar müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Rəsmi opponentlər:** **Cəmilə İsmayıl qızı Həsənova**
sənətşünaslıq üzrə elmlər doktoru, dosent

**Ellada Əlihüseyn qızı Hüseynova**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat**: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqişünaslıq" kafedrası.

Müdafiə "__27__" noyabr 2015-ci ildə saat 12:00 da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" oktyabr 2015-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent **H.V.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan musiqi sənətinin hərtərəfli araşdırılması musiqi elmimizin əsas vəzifələrindəndir və demək olar ki, bu istiqamətdə aparılan məqsədyönlü iş öz bəhrəsini göstərir. Azərbaycan musiqişünaslarının diqqət mərkəzində musiqinin müxtəlif mövzu və məsələləri durur və onların sırasında, sözsüz ki, bəstəkar yaradıcılığı hər zaman xüsusi əhəmiyyət kəsb edir.

Tədqiqatçı hər bir bəstəkarın əsər, janr, yaradıcılıq sahəsinə və ümumiyyətlə, musiqisinə müraciət etdikdə yalnız bu yaradıcılıqdan irəli gələn məsələləri əks etdirmir. Müəyyən sənətkarın üslub axtarışları və özünəməxsusluğunu üzə çıxardaraq o, eyni zamanda həmin yaradıcılığın ümumi musiqi prosesi ilə bağlılığını göstərir və bununla müasir bəstəkar yaradıcılığında öz əksini tapan bəzi təmayülləri müəyyənləşdirir və Azərbaycan musiqisinin ümumi mənzərəsini canlandırmış olur. Məhz bu halda Azərbaycan musiqişünaslarının elmi səyləri daha maraqlı və yerinə düşən olur və ümumilikdə Azərbaycan musiqi sənətinin çiçəklənməsinə xidmət edir.

Xüsusi vurğulamaq istərdik ki, Azərbaycan musiqişünaslığında hələ araşdırılmayan bəstəkar yaradıcılıqları, təhlilini hələ tapmayan bir çox mövzular, məsələlər və əsərlər var ki, onların öyrənilməsi musiqi elmimiz üçün son dərəcə önəmlidir. Azərbaycan musiqisinin təqdirəlayiq ənənələrə malik olması yaxşı məlumdur. Əsası dahi Üzeyir Hacıbəyli tərəfindən qoyulmuş bu ənənələri yaşadan, inkişaf etdirən, yeni çalarlarla və ciddi üslub axtarışları ilə zənginləşdirən bir neçə bəstəkar nəsli olub və var, bu gün də bu işi uğurla yerinə yetirməkdədirlər. Ən vacib odur ki, XX əsr musiqisinin bədii tapıntısı olan Azərbaycan və avropa musiqi ənənələrinin üzvi birləşməsi kimi qanunauyğunluq XXI əsrin musiqisi üçün də olduqca aktual və dəyərlidir. Bu baxımdan bizim diqqətimizi Azər Dadaşovun yaradıcılığı cəlb etdi. Bəstəkar öz musiqisində Şərq və Qərb ənənələrini özünəməxsus şəkildə əks etdirir. Bu təmayülü onun kamera-instrumental yaradıcılığında izləmək cəhdi təqdim etdiyimiz dissertasiya mövzusunun aktuallığını təsdiqləyir.

**Mövzunun işlənmə dərəcəsi.** Təəssüflə qeyd etməliyik ki, A.Dadaşovun yaradıcılığı milli musiqişünaslığımızda öz hərtərəfli işıqlandırılmasını hələ tapmayıb. Bəstəkarın musiqisinə göstərilən diqqət əsasən onun simfonik musiqisi ilə əlaqəlidir. On simfoniyanın müəllifi olan A.Dadaşov milli musiqimizdə bu janra xüsusi münasibət bəsləyən sənətkar kimi tanılır

və beləliklə, simfoniya janrının onun yaradıcılığında tutduğu yer və oynadığı rol tam aydın olur. Məhz buna görə tədqiqatçılar öz elmi əsərlərində Azərbaycan bəstəkarının simfoniyalarına müraciət edirlər.

İlk olaraq musiqişünas N.Dadaşovanın bəstəkarın simfonik yaradıcılığına həsr etdiyi sənətşünaslıq dissertasiyasını qeyd etməliyik ki, müəllif onun əsasında "Azər Dadaşovun simfoniyaları" adlı kitabını[1] dərc edir. Tədqiqatçı bəstəkarın musiqisində xüsusi yer tutan və böyük məna kəsb edən janrı ətraflı təhlil edir və bununla bağlı öz mülahizələrini irəli sürür. Eyni zamanda N.Dadaşova bəstəkarın üslubunu səciyyələndirən bəzi məqamlara da aydınlıq gətirir.

Musiqişünas Z.Dadaşzadə "Simfoniyanın fəzası" adlı kitabında[2] keçən əsrin 60-80-ci illərin Azərbaycan simfoniyasının inkişaf yollarını nəzərdən keçirərək A.Dadaşovun simfonik axtarışlarından söz açır və o illərə aid olan bəzi nümunələrinin bədii dəyərini üzə çıxartmağa çalışır.

Gənc tədqiqatçı N.Qulamova "Azər Dadaşovun simfonik yaradıcılığına bir nəzər" adlı kitabında[3] bəstəkarın ayrı-ayrı əsərlərinin misalında simfoniyaya olan yanaşmanı açmış olur.

Bununla yanaşı A.Dadaşovun musiqisinə, onun ayrı-ayrı nümunələrinə həsr olunan Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında bakalavr adını almaq üçün yazılan buraxılış işlərini, eləcə də magistr adını almaq üçün təqdim olunan magistr dissertasiyalarını göstərmək olar. Bəstəkarın yaradıcılığı ilə bağlı olan məqalələrə, informasiya xarakterli materiallara mətbuat səhifələrində rast gəlmək olar.

Sözsüz ki, A.Dadaşovun bütövlüklə yaradıcılığı və onun hər ayrı sahəsi ciddi elmi işin mövzusu ola bilər. Güman etmək istərdik ki, bəstəkarın kamera-instrumental musiqisinə həsr etdiyimiz elmi tədqiqat müəyyən mənada qeyd etdiyimiz məsələnin həllinə xidmət edə bilər.

**Mövzunun elmi yeniliyi.** Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi Azər Dadaşov müasir Azərbaycan musiqisinin ən istedadlı və dəyərli nümayəndələrindən biridir. Azərbaycan musiqisinə 70-ci illərin əvvəllərində daxil olan bəstəkar bu gün milli musiqi mədəniyyətimizin tanınmış, fəal və ən əsas özünəməxsus üslubu olan sənətkarlarındandır.

---

[1] Дадашева Н. К. Симфонии Азера Дадашева. Баку, Техсил, 2012.
[2] Dadaşzadə Z.A. Simfoniyanın fəzası. Bakı, Elm, 1999.
[3] Qulamova N.K. Azər Dadaşovun simfonik yaradıcılığına bir nəzər. Bakı, Adiloğlu, 2006.

A.Dadaşovun bir bəstəkar kimi fəaliyyəti böyük marağa səbəb olur. Onun yaradıcılığı məzmun və forma, janr və üslub cizgiləri baxımından tədqiqatçı üçün olduqca maraqlıdır. Bəstəkar geniş və rəngarəng yaradıcılıq sahibi kimi tanınılır və demək olar ki, o, bütün janrlarda böyük uğurla çıxış edir. A.Dadaşov hər bir əsərində yaradıcılığına xas olan ciddi və məsuliyyətli münasibətini açıq şəkildə çatdırır və yüksək peşəkar olduğunu daima qabarıq şəkildə göstərir. Xüsusi vurğulamaq istərdik ki, sadaladığımız xüsusiyyətlər bəstəkarın bu gün də yazdığı əsərlərdə özünü büruzə verir. A.Dadaşov öz yaradıcılığında dövrün abu-havası ilə bağlılığını parlaq əks etdirir. Müasir təfəkkürlü bəstəkar olaraq, o, hər bir yeniliyə öz münasibətini açıq şəkildə ifadə edir. Təqdirəlayiqdir ki, A.Dadaşov öz milli köklərini unutmur; o, bu ənənələrə xüsusi hörmətlə yanaşır və bunun təsdiqini onun bir çox əsərlərində aydın görmək olar.

A.Dadaşov bir bəstəkar kimi özünü musiqinin müxtəlif sahələrində, bir çox instrumental və vokal musiqi janrlarında uğurla sınayıb. Xüsusilə qeyd etmək istərdik ki, hər musiqi janrını gözəl hiss edərək bəstəkar onun öhdəsindən bacarıqla gəlir və əsərin janr, məzmun, formasından asılı olmayaraq özünə xas olan yüksək peşəkarlığını və əsl ustalığını daima nümayiş etdirir.

A.Dadaşovun zəngin və əhatəli olan yaradıcılığında çoxsaylı kamera-instrumental əsərləri özünəməxsus üslubu ilə xoş təsir bağışlayır. Təqdim etdiyimiz elmi işimiz də bəstəkarın bu günə qədər araşdırılmayan yaradıcılığının kamera-instrumental musiqisinə həsr olunur. Bununla qeyd etdiyimiz elmi işin mövzusunun yeniliyi bəlli olunur.

A.Dadaşovun yaradıcılığında bizim diqqətimizi cəlb edən onun kamera-instrumental musiqisidir. Onu da qeyd edək ki, bəstəkarın bu yaradıcılıq sahəsi bu günə qədər araşdırılmayan sahə idi və dissertasiyada onun kamera-instrumental əsərləri ilk dəfə olaraq təhlil olunur.

**Mövzunun məqsədi və vəzifələri.** Dissertasiya Azər Dadaşovun kamera-instrumental yaradıcılığına həsr olunduğuna görə burada əsas məqsəd bəstəkar musiqisinin bu özünəməxsus sahəsini ardıcıl və ətraflı şəkildə təqdim etmək və onu səciyyələndirən bütün əsas xüsusiyyətləri üzə çıxartmaqdır.

Dissertasiyanın vəzifələrini müəyyənləşdirən A.Dadaşovun kamera-instrumental musiqisinin müxtəlif xarakterli, üslub baxımından olduqca fərqli və rəngarəng əsərləridir. Bəstəkar yaradıcılığı boyu adətən müəllifdən istedad və zövq tələb edən bu musiqinin spesifik sahəsinə böyük maraq nümayiş edir. A.Dadaşovun diqqəti cəlb edən və bədii dəyərinə görə seçilən kamera musiqi nümunələri çoxdur. Bir-birindən janr, forma, musiqi dil baxımından çox fərqli olan əsərləri birləşdirən və hər əsəri xarakterizə

edən özünəməxsus cəhətləri üzə çıxartmaq olduqca vacibdir. Təbii ki, təhlil olunan əsərin bütün incəliklərini görmək və onları ümumiləşdirmək elmi işin önəmli vəzifələrindəndir.

**Tədqiqatın metodu və metodoloji əsasları.** Ümumiyyətlə, bəstəkar yaradıcılığını araşdıran tədqiqatçı iş prosesində müxtəlif, çox zaman heç də asan olmayan məsələlərlə rastlaşır ki, onların həlli yolları musiqinin tarixi və nəzəri təhlil metodlarına yönəlir. Odur ki, təqdim olunmuş dissertasiyada qeyd edilən təhlil metodlarından yararlanaraq A.Dadaşovun kamera-instrumental musiqisi tədqiq olunur. Bir tərəfdən bəstəkarın yaradıcılığına ümumi Azərbaycan musiqisinin inkişafı kontekstində baxılır, digər tərəfdən isə bütün əsərlər Şərq-Qərb ənənələr kontekstində təhlil olunur.

Dissertasiyanın yazılmasında metodoloji baza kimi Azərbaycan musiqişünaslığının aparıcı müəlliflərinin əsərlərinə istinad olunur. Burada Ü.Hacıbəyli, E.Abasova, G.Abdullazadə, S.Abdullayeva, F.Əliyeva, Ş.Həsənova, Z.Qafarova, S.Qasımova, K.Nəsirova, T.Məmmədov, R.Məmmədova, Z.Səfərova, R.Zöhrabov və s. kimi tanınmış Azərbaycan musiqişünaslarını göstərmək olar. Onların elmi əsərlərində Azərbaycan musiqisinin müxtəlif məsələlərinin işıqlandırılması dissertasiyanın metodoloji əsaslarının ərsəyə gəlməsində son dərəcə vacib və dəyərli əhəmiyyət kəsb etmişdir.

Bununla yanaşı dissertasiya üzərində çalışarkən bir sıra tanınmış rus musiqişünasların əsərlərindən bir metod kimi istifadəsini də qeyd etmək lazımdır. Burada B.Asafyev, M.Aranovskiy, A.İvaşkin, L.Mazel, M.Tarakanov, V.Xolopova, M.Vısotskaya və s. kimi görkəmli rus tədqiqatçılarının adlarını çəkmək olar.

**Dissertasiyanın obyekti** kimi Azər Dadaşovun kamera-instrumental yaradıcılığının təkamülünü səciyyələndirən, həmçinin Azərbaycan instrumental musiqisində xüsusi mövqe tutan əsərləri təhlil olunur.

**Dissertasiyanın predmetini** Azərbaycan bəstəkarının kamera-instrumental yaradıcılığı təşkil edir və bəstəkarın ümumi yaradıcılığında xüsusi əhəmiyyət kəsb edən əsərlərinin Azərbaycan musiqi tarixində oynadığı rolu vurğulanır.

**Tədqiqatın faktiki materialını** A.Dadaşovun şəxsi arxivində yer tapan əl yazmaları təşkil edir. Təqdim etdiyimiz dissertasiyada bəstəkarın bütün əsərlərinə müraciət olunmur, çünki, onların ümumi sayı çoxdur və onları bir iş daxilində araşdırmağa ehtiyac da yoxdur. Burada təhlil olunan bütün əsərlər üç yerə bölünür. Dissertasiyanın birinci hissəsini bəstəkarın müxtəlif tərkibli orkestr əsərləri təşkil edir, burada "Lugubre və Scherzo", "Adajietto və Scherzino", "Pastoral süitası", "Konsertino", "Divertisment"

kimi əsərlər təhlil olunur. Tədqiqatın ikinci, nisbətən yığcam hissəsi kamera-ansambl əsərlərindən ibarət olub, klarnet və fortepiano üçün Sonata və nəfəsli kvintet üçün yazılan "İçəri şəhər" adlı əsərlərin təhlili ilə bağlıdır. Nəhayət, üçüncü qrup əsərlər bəstəkarın musiqisində konsert janrının istifadəsi ilə bağlıdır və burada fleyta və orkestr üçün Konsertino, fortepiano və kamera orkestri üçün 1 saylı konsert öz təhlilini tapır. Bununla bəstəkarın kamera-instrumental yaradıcılığının ümumi mənzərəsi və onun hər mərhələsi ilə bağlı olan ən maraqlı məqamları aydın görünür.

**Dissertasiyanın praktiki əhəmiyyəti** onunla bağlıdır ki, burada cəmləşən geniş və tam yeni material, əldə olunan nəticələr Azərbaycan musiqisi ilə təmasda olan hər bir mütəxəssis üçün və xüsusilə musiqişünaslar üçün faydalı və önəmlidir. İşin əsas müddəalarından və materiallarından bu sahədə aparılan elmi-tədqiqat işlərində, həmçinin tədris prosesində əyani vəsait olaraq istifadə oluna bilər.

Dissertasiyanın materialı, o cümlədən bir çox əsərlərin təhlili və nəticələrlə tanışlıq Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında, Azərbaycan Milli Konservatoriyasında, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, eləcə də digər ali və orta musiqi təhsil ocaqlarında "Azərbaycan musiqi tarixi" yaxud "Azərbaycan musiqi ədəbiyyatı" fənlərin tədrisində lazımlı vəsait ola bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiyanın təqdimatı Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasının iclasında yerinə yetirilmişdir. Tədqiqatın materialları və əldə olunan elmi nəticələr müəllifin elmi jurnallarda çap olunmuş məqalələrində və konfranslardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, iki bölüm, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

Dissertasiyanın **I fəsli "Azər Dadaşovun yaradıcılığı müasir Azərbaycan musiqisinin kontekstində" adlanır.**

Müasir bəstəkar yaradıcılığına müraciət edən tədqiqatçı çox təbii olaraq onu XX əsr musiqi ənənələrinin kontekstində araşdırır. Məntiqli görünən bu yanaşmanın arxasında ciddi əsasların mövcudluğu qeyd

etdiyimizi bir daha təsdiqləyir. Müasir bəstəkar dedikdə biz keçən əsrdə dünyaya gələn və təhsil alan, peşəkar kimi formalaşan və fəaliyyətdə olan musiqiçini təsəvvür edirik. Odur ki, həmin bəstəkar öz yaşadığı dövrün abu-havasını qəbul edərək, müəyyən ənənələri, yazı prinsip və metodları mənimsəyərək öz yaradıcılığını XXI əsr şəraitində davam etdirir. Maraqlıdır ki, keçən yüzillik heç vaxt yaranan vaxtdan başlayaraq və bu günə qədər birmənalı qarşılanmayıb və çox zaman amansız və obyektivlikdən uzaq olan tənqidlə rastlaşıb.

Bəşəriyyət tarixində XX əsr, bəlkə də, ən mürəkkəb və sarsıdıcı, sanki təzadlar və ziddiyyətlər üzərində qurulan bir dövrdür. Elm və texnikanın, eləcə də bədii mədəniyyətin dinamik inkişafı və parlaq nailiyyətləri ilə səciyyələnən bu yüzillik eyni zamanda böyük faciələr və təsirli fəlakətlərlə bağlı olub. Yalnız ikinci cahan müharibəsini, yer kürəsinin müxtəlif nöqtələrində lokal hərbi toqquşmaları, çoxsaylı inqilabları, nəhəng imperiyaların dağılması və yeni ölkələrin yaranmasını xatırlamaqla söz açdığımız dövrün üzləşdiyi hadisələri və onların yaratdığı fəsadları yada salmaq kifayətdir.

XX əsr artıq tarixə çevrilsə də, onun çox mənalı və güclü təsiri müasir cəmiyyətin müxtəlif sahələrində, o cümlədən musiqi sənətində də aydın hiss olunur. Dövrün musiqisinə gəldikdə isə onun son dərəcə zənginliyi və fərqliliyi xüsusi olaraq gözə çarpır. Olduqca rəngarəng və təzadlarla səciyyələnən bu mənzərəni yaradan bir çox bəstəkar məktəbləri, yaradıcılıq birlikləri, çox saylı cərəyanlar, yazı texnikaları və müxtəlif üsullardır. Təbii ki, dövrün bəstəkarları ardıcıl olaraq öz yaradıcılığında müxtəlif məsələlərin üzərində çalışıb, onların həlli ilə bilavasitə məşğul olublar. Bu haqda XX əsr musiqisinə, onun ayrı-ayrı qəhrəmanlarına həsr olunan ədəbiyyatda rast gəlinir. Məhz buna görə yaxşı məlum olan faktlara bir daha müraciət etməyə lüzum yoxdur. Sadəcə bir daha qeyd etmək istərdik ki, müzakirə olunan dövrün hər bəstəkarı birmənalı olaraq öz yaradıcılığında novatorluq (yeniləşmə) və ənənə kimi məsələlərin üzərində ciddi çalışırdı.

Dövrün musiqisində baş verən yeniləşmə çox ciddi səylərin və dərin axtarışların hesabına əldə olunurdu və sözsüz ki, onu təmsil edən bir çox bəstəkarlar əsl novator kimi çıxış etmişlər. Onu da əlavə etməliyik ki, bu yeniləşmə olduqca geniş, total xarakter daşıyırdı və onun təcəssümünü musiqinin məzmun, mövzu-obraz aləmindən başlayaraq quruluş və dil xüsusiyyətlərinin istifadəsinə qədər görmək olar. Dediyimizin təsdiqini rus tədqiqatçısı M.Vısotskayanın F.Qarayevə həsr etdiyi monoqrafiyasında tapmış oluruq. Müəllif keçən əsri xarakterizə edərək, aşağıdakıları söyləyir: "XX əsr humanitar mədəniyyəti bir çox anlayışlarının istifadə sferasını

genişləndirərək və traktovkalarına yeni aspektləri daxil etməklə onlara öz münasibətini dəyişdirmiş olur”.[4]

Mədəniyyət sahəsində və xüsusilə musiqidə ənənə olduqca güclü amil daşıyıcısıdır və burada bu və ya digər ənənənin (ənənələrin) müəllimdən şagirdə, nəsildən nəslə, məktəbdən məktəbə çatdırılması, mənimsənilməsi və uğurla istifadəsi musiqinin əsas qanunauyğunluqlarından biri kimi çıxış edir.

XX əsrin musiqi mədəniyyətinin inkişafını nəzərdən keçirərək məlum olur ki, dövrün bəstəkarları kamera-instrumental musiqisinə xüsusi diqqət nümayiş edirdilər. Keçən əsrin əvvəllərindən bəstəkar yaradıcılığında başlanan bu canlanma tezliklə öz bəhrəsini göstərmiş oldu.

Kamera-instrumental yaradıcılıq musiqinin çox vacib və özünəməxsus sahəsidir. Bir çox parametrlərə görə müstəqil olan və öz dəsti-xətti ilə həmişə seçilən bu musiqinin xüsusi dinləyici auditoriyası da var. Kamera musiqi konsertləri adətən kiçik zallarda, təsviri sənət incilərin ətrafında olan muzey şəraitində baş verir və məhz buna görə xüsusi təsir bağışlayır ki, ifaçı (ifaçılar) və dinləyici arasında sıx bağlılıq, qeyri-adi kontakt yaradır.

Keçən əsrin 70-ci illərin əvvəllərində musiqimizə daxil olan Azər İsmayıl oğlu Dadaşov müasir Azərbaycan musiqisinin ən istedadlı və fəal nümayəndələrindəndir. İstedadlı musiqiçi bu gün artıq tanınmış, yaradıcılığının müxtəlif janr və formalarında uğurla çıxış edən və bir çox yadda qalan gözəl əsərlərin müəllifidir.

A.Dadaşov görkəmli bəstəkar və pedaqoq Qara Qarayevin yetirməsi, onun ənənələrinin davamçısıdır. Ümumiyyətlə, milli musiqi mədəniyyətimizin klassiki Q.Qarayev bir pedaqoq kimi uzaqgörənliyi ilə seçilirdi. Ümumiyyətlə, 60-70-ci illər Azərbaycan musiqi sənətində çox parlaq və məhsuldar dövr sayıla bilər. Bu dövr musiqisinə xas cəsarətli novator addımlar məhz Q.Qarayevdən gələn bir ənənə idi. Həmin bu ənənə isə onun çoxsaylı tələbələri tərəfindən davam etdirilirdi.

Azər Dadaşovun yaradıcılığı qırx ildən artıqdır ki davam edir, onun musiqisi yüksək rəsmi tədbirlərdə, festivallarda, o cümlədən, tanınmış ifaçıların repertuarlarında səslənir. Onun simfoniyaları, orkestr, kamera-instrumental əsərləri, xor nümunələri müasir dövrümüzdə müxtəlif janrlarda öz qələmini sınayan bəstəkarın zəngin və istedadlı potensialından xəbər

---

[4] Высоцкая М.С. Между логикой и парадоксом:композитор Фарадж Караев. М., 2012, с.44

verir. Ümumiyyətlə, A.Dadaşovun professionallığı, yaradıcılıq axtarışları, milli ənənələrə istinad etməsi və onların yeni "simada" işlənməsi və inkişafı hamıya bəllidir. A.Dadaşov musiqisinin aparıcı qüvvəsi kimi onun lirikasını qeyd etməliyik. Burada təqdim olunmuş hər bir frazanın, motivin, ümumiyyətlə harmonik kompleksin cazibəsi bəstəkar tərəfindən səmimiyyətlə həyata keçirilib.

Bəstəkarın kamera musiqisində təqdim olunmuş obrazlar aləminin ifadəsi A.Dadaşovun işıqlı, həyatsevər dünyagörüşü ilə bağlıdır. Onun musiqi dilində orkestrın aydın və şəffaf yazısı xüsusi diqqətəlayiqdir. Orkestrdə hər bir solistin fərdiliyi, klassik ifadə vasitələri, ritmlərin qəribə oyunu, ümumi əhval-ruhiyyənin, oyun tamaşasının "yarış"ı kamera əsərlərində müşahidə olunan əsas cizgilərdəndir.

Müraciət etdiyi hər bir janrda bəstəkarın sözün əsl mənasında peşəkar kimi çıxış etməsinin şahidi oluruq. Həqiqətən də burada A.Dadaşovun bu sahəyə olan xüsusi marağının və istedadının şahidi oluruq. Maraqlıdır ki, bəstəkarın kamera musiqisinə olan marağını həm kamera orkestrı üçün yazılan əsərlərdə, həm də ayrı-ayrı alətlər tərkibi üçün yazılan nümunələrdə görmək olar. Məlumdur ki, bəstəkar kamera orkestri üçün "Lugubre və Skertso, fleyta və kamera orkestrı üçün Konsertino, Alt və kamera orkestrı üçün Konsert, "Adajietto və Scherzino", simlilər üçün "Üzeyirsayağı" simfoniyettası (üçhissəli), kiçik simfonik orkestr tərkibi üçün "Pastoral süitası", "Uşaq süitası", "Lirik süita", kamera orkestri üçün 2 saylı Konsertino, "Tutti", skripka, violonçel və fortepiano ansamblı üçün "Kiçik konsert", "Divertisment", fortepiano və kamera orkestr üçün 3 konsert, nəfəsli kvintet "İçəri şəhər", klarnet və fortepiano üçün Sonata (Elxan Babayevə həsr olunub) və s. kimi əsərləri Azərbaycan incəsənətində kamera musiqi sahəsinin dəyərli nümunələri sırasındadır. Burada bəstəkar böyük müəllimi Q.Qarayevin sinfində yiyələndiyi bilikləri nümayiş etdirir. Bəstəkarın kamera yaradıcılığı, tematizm təşkili üsulları, xalq musiqisindən istifadə prinsipləri, kompozisiya texnikası vasitələri baxımından fərqli və maraqlı nümunələrlə zəngindir. Bununla da bəstəkarın bu yazıda öz dəstxəttini tapması və Azərbaycan professional musiqisində özünəməxsus yer tutması barədə fikir irəli sürməyə əsas verir.

A.Dadaşovun musiqisi musiqişünasların diqqət mərkəzindədir. Bəstəkar musiqisinin dərinliyi, mənalığı insanı bu musiqiyə biganə qalmağı qoya bilməz. Azərbaycan bəstəkar musiqisinin yüksək ənənələrini qoruyub saxlayan A.Dadaşov, eyni zamanda müasirliyi, konkret və dəqiq formanın sərbəstliyini, ciddi məntiq və fəlsəfi düşüncə ilə aydınlığı, sadəliyi yaradıcı-

lığında göstərmiş olur. Eyni zamanda A.Dadaşov yaradıcılığında təkrardan söz gedə bilməz. Onun musiqisi milli və müasir, sadə və mürəkkəb, rasional və emosional kimi xüsusiyyətlərə malikdir.

A.Dadaşovun musiqisini araşdırmaq son dərəcə maraqlı və önəmlidir. Eyni zamanda bu musiqi ilə təmasda olmaq insana, bu işlə bilavasitə məşğul olana böyük zövq verir.

**Dissertasiyanın II fəsli "Azər Dadaşovun kamera orkestr əsərləri" adlanır.** Kamera-instrumental yaradıcılıq musiqi sənətinin özünəməxsus sahəsi olduğuna görə onu hər zaman səciyyələndirən amillər kimi üslub saflığı, bədii zövq və xüsusi həssaslıq çıxış edir.

Keçən əsrin kamera-instrumental musiqisi çox fərqli ənənə və səylərə istinad edir və bununla onun zənginliyi və özünəməxsusluğu bir daha təsdiqlənir. Təbii ki, müasir kamera-instrumental yaradıcılıqda keçən əsrin musiqi ənənələrinin xüsusi bədii məna kəsb etməsi olduqca aydın və məntiqli görünür. Dediyimizin təsdiqini A.Dadaşovun çoxsaylı kamera-instrumental əsərlərində tapmaq olar ki, burada milli və avropa musiqi ənənələrinin üzvi birləşməsi baş verir.

Bəstəkarın müxtəlif janrlı kamera-instrumental əsərləri onun ümumi və əhatəli olan yaradıcılığının çox dəyərli və maraqlı hissəsini təşkil edir. A.Dadaşov ilk kamera musiqi nümunələrini hələ Konservatoriyada oxuduğu illərdə yazır və bu günə qədər onun müxtəlif növlü əsərləri yazılıb və yazılmaqdadır. İstedadlı və həssas musiqiçi kimi bəstəkar musiqi sənətinin bu sahəsini çox gözəl hiss edir, onun bütün incəliklərinə bələd olaraq hər janrı xüsusi ustalıqla çatdırır. Onu da əlavə etmək lazımdır ki, A.Dadaşov yaradıcılığının bu sahəsində özünü çox maraqlı və fərqli tərzdə göstərmiş olur.

Bəstəkarın kamera-instrumental yaradıcılığı öz-özlüyündə çox zəngin və olduqca maraqlıdır. A.Dadaşovu bir musiqiçi kimi xarakterizə edən bir çox gözəl cəhətlər var ki, onlardan ilk növbədə onun böyük istedadı və yaradıcılıq məhsuldarlığı xüsusi qeyd olunmalıdır. Təbii ki, dediyimizi bəstəkarın bütöv yaradıcılığına şamil edirik. Şübhəsiz, böyük yaradıcılıq potensialına malik olan və hərtərəfli inkişaf etmiş bəstəkar musiqinin hər bir sahəsində özünü tapır və inandırıcı şəkildə çıxış edir. Əgər bir anlığa təsəvvür etsək ki, A.Dadaşovun yaradıcılığı ancaq kamera musiqisi ilə bağlıdır, onda da güman etmək olar ki, o, bu məhdud vəziyyətdən uğurlu çıxış yolu tapa bilər. Əlbəttə sənət, musiqi aləmində aparılan bütün mühakimələrin arxasında istedad, seçilən peşəyə hörmət və ona fədakarcasına yanaşma olmalıdır. A.Dadaşovun ümumi yaradıcılıq fəaliyyətində sadaladı-

ğımız xüsusiyyətləri aydın seyr etmək olar və onun təzahürünü bəstəkarın kamera-instrumental musiqisinin misalında göstərmək istərdik.

A.Dadaşovun müraciət etdiyimiz kamera-instrumental musiqisi məzmun, janr və forma baxımından çox müxtəlifdir. Odur ki, bu əsərlərin müəyyən janr və orkestr, ansambl, solo alətlər üçün yazılması baxımından, eləcə də, ifaçılıq məsələlərini nəzərə alaraq araşdırılması daha məqsədyönlü olar.

Bəstəkarın kamera-instrumental yaradıcılığının ən böyük maraq doğuran hissəsini kamera orkestri üçün yazılan əsərləri təşkil edir. Təqdirəlayiq odur ki, bu musiqi bəstəkar yaradıcılığının bütün mərhələlərini əhatə edir və bununla bilavasitə bağlı olan axtarışlar və əldə olunan uğurlar, üslub dəyişikliyi və səylərin müxtəlifliyi bir daha bəstəkarın musiqisində baş verənləri çox qabarıq şəkildə çatdırmış olur. Odur ki, bu musiqinin araşdırılmasında əsərin yazılması, yəni onun yaranma tarixi çox vacibdir və təhlil olunan bütün əsərlər bu qayda əsasında sıralanır. Nəhayət, elmi işimizdə A.Dadaşovun ən maraqlı əsərlərinə yer verilir və buna görə bəstəkarın bütün əsərlərinə müraciət olunması qeyri-mümkündür.

1964-cü ildə Azərbaycan Dövlət Kamera Orkestri indiki Qara Qarayev adına Dövlət Kamera Orkestri təşkil olunur ki, onun ilk bədii rəhbəri və baş dirijoru gözəl musiqiçi Nazim Rzayev olmuşdur. Bu ifaçılıq kollektivinin yaranması geniş məna kəsb edən qədim musiqiyə yaranan maraqla bağlı idi. Azərbaycan Dövlət Kamera Orkestrinin yaranması dövrü xarakterizə edən təmayüllər ilə bilavasitə əlaqəli idi və eyni zamanda Azərbaycan bəstəkarları bu yaradıcılıq kollektivi üçün öz əsərlərini yazırdılar. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan bəstəkarları kamera musiqi janrlarına, müxtəlif kiçik həcmli janr və formalara ciddi həvəs nümayiş edirdilər. Həmin 60-cı illərdə kamera orkestri üçün Q.Qarayevin "Klassik süitası" (IV dəftər fortepiano prelüdlərinin əsasında), A.Əlizadənin II "Kamera" simfoniyası, "Pastoral" və "Aşıqsayağı" adlı iki pyesləri və s. yaranır. Diqqətəlayiqdir ki, Azərbaycan Dövlət Kamera Orkestri 60-cı illərdən başlayaraq bu günə qədər Azərbaycan bəstəkar musiqisinin ən fəal və daimi təbliğatçılarındandır.

A.Dadaşovun kamera-instrumental yaradıcılığında 70-ci illərin məhsulu olan "Lugubre və Scherzo", eləcə də, "Adajietto və Scherzino" adlı silsilələri xüsusi yer tutur. İki pyesdən ibarət olan bu kiçik silsilələrin yaranması heç də təsadüfi olmayıb. Əksinə, bəstəkar üçün çox vacib olan bu əsərlər dövrün musiqi ictimaiyyətinin diqqətini cəlb edən və yüksək qiymətləndirilən yaradıcılıq uğuru idi. A.Dadaşov birinci "Lugubre və Scherzo" silsiləsini 1972-ci ildə, ikinci "Adajietto və Scherzino" silsiləsini

isə 1975-ci ildə yazıya alır. Hər iki silsilə bir-birinə yaxın olsa da, əslində, tam müstəqil əsərlərdir ki, onların bəstəkar yaradıcılığında müstəsna rolu və bədii əhəmiyyəti hər zaman qeyd olunur.

Bəstəkarın "Lugubre və Scherzo" adlı silsiləsi Konservatoriyanı bitirdikdən sonra yazılan və ona ilk böyük uğur gətirən əsərdir. Tələbəlik illərini arxada qoyan və artıq sərbəst yaradıcılıq yoluna çıxan A.Dadaşov yazıb-yaratmaq istəyirdi, lakin o, öz musiqisində yeni yazı prinsiplərini, yeni dil xüsusiyyətlərini mənimsəməyə çalışırdı. Təqdirəlayiqdir ki, gənc musiqiçi Konservatoriyada əldə etdiyi nailiyyətlərlə sanki "razılaşmayaraq" öz yaradıcılığında sözün əsl mənasında irəliyə doğru hərəkət etməyə çalışır və ciddi üslub axtarışlarına hazır olduğunu nümayiş etdirir. Bu baxımdan söz açdığımız "Lugubre və Scherzo" silsiləsi olduqca mənalı və maraqlıdır.

İlk onu qeyd edək ki, təhlil etdiyimiz silsilə, eləcə də, sonra yazılan "Adajietto və Scherzino" silsiləsi, kamera orkestri üçün yazılıb, daha dəqiq desək, bəstəkar burada əsasən simli kvintetin imkanlarından bəhrələnir və bununla onun çox yığcam və təbiət etibarı ilə eyni qrup alətlərinə müraciət etməsi istər-istəməz diqqəti cəlb edir. Başqa sözlə desək A.Dadaşov, musiqisində baş verən yenilikləri vurğulamağa çalışır. Əsərlə tanış olduqda isə onun hərtərəfli düşünülmüş kompozisiya olduğu məlum olur ki, bu bir daha bəstəkarın üslub səylərinin ciddiliyindən xəbər verir. Onu da əlavə etmək lazımdır ki, "Lugubre və Scherzo" silsiləsinin məzmun və forma yeniliyi, yığcam ifaçılıq tərkibi üçün yazılması o dövrün Azərbaycan musiqisində mövcud olan kamera musiqisinə böyük maraqla üst-üstə düşür.

A.Dadaşovun bu iki silsiləsi Azərbaycan Dövlət Kamera Orkestri ilə əməkdaşlığın başlanğıcını qoyur və onun davamını sonra yazılan maraqlı əsərlərdə görmək olar. Bu əsərlərin müxtəlif janrlarla yaxud müəyyən ifaçılar üçün yazılması qeyd oluna bilər. Ən vacib odur ki, bu çoxsaylı və müxtəlif xarakterli əsərlər bəstəkarın kamera-instrumental yaradıcılığının bünövrəsini qoyur və hər əsər ayrı-ayrılıqda onun bəstəkarlıq üslubunu özünəməxsus tərzdə açmış olur.

A.Dadaşovun iki silsiləsini birləşdirən və bir-birindən fərqləndirən bəzi xüsusiyyətlər var ki, onlardan xüsusi olaraq danışmağa dəyər. Şübhəsiz, ilk öncə silsilələrin yenilənmiş üslubu qeyd olunmalıdır. Bir daha qeyd edək ki, bəstəkar tələbəlik illərinə xas olan yazı tərzini sanki unutmağa çalışır və onu daha mürəkkəb, qənaətcil üslubla əvəz edir. Bəstəkar özünü sərbəst düşünən müəllif kimi göstərir və hər silsiləni özünəməxsus şəkildə təqdim edir. Onların musiqisini, quruluşunu, silsilə təqdimatını geniş məna kəsb edən yığcamlılıq səciyyələndirir.

Maraqlıdır ki, bəstəkar hər silsilədə iki təzadlı və kiçik həcmli pyes yerləşdirir. Bununla belə, burada eyni silsilə quruluşundan istifadə olunur ki, təmkinli, dərin və subyektiv lirik xarakterli birinci hissədən sonra cəld templi, çevik ikinci hissə gəlir. Hər iki silsilə kamera orkestri üçün yazılmışdır və onu da əlavə etmək olar ki, bəstəkar çox yığcam və fərqli tərkibdən bəhrələnir. A.Dadaşovun musiqi dil xüsusiyyətlərinə dəqiq və ciddi yanaşması, sözsüz ki, təqdirəlayiqdir. Bu işin başında ancaq bəstəkarın biliyi və bacarığı durmur. Burada çox vacib şərt kimi yaradıcı insanın zövqü çıxış edir. Təhlil olunan silsilələrdə bəstəkarın ənənəvi musiqi dil qanunauyğunluqlarından uzaqlaşması və müəyyən sərbəstliyə əsaslanması məlum olur. Bu fikri davam etdirərək onu da demək lazımdır ki, musiqinin sərbəstliyi arxasında ciddi rasionallıq və məntiqlik durur.

A.Dadaşovun yaradıcılığında süita janrı geniş istifadə olunan janrlardan biridir və bunun təsdiqini onun fortepiano, orqan və Azərbaycan xalq çalğı alətləri orkestri üçün yazılan əsərlərində görmək olar. Bununla belə süita bəstəkarın kamera instrumental musiqisində də öz əksini tapır və burada "Pastoral süita", "Uşaq süitası", "Lirik süita" və s. adlı əsərləri qeyd etsək yerinə düşər.

Çox önəmli odur ki, süita silsilə kimi müasir bəstəkar yaradıcılığında özünəməxsus "missiyasını" yerinə yetirir və dediyimizi A.Dadaşovun "Pastoral süita" misalında araşdırmaq istərdik. Təhlil olunan əsər 1985-ci ildə yazılıb və onun ilk ifası 1986-cı ildə Bakıda məşhur dirijor R.Matsovun rəhbərliyi ilə Ü.Hacıbəyli adına Dövlət simfonik orkestrın ifasında baş verib.

Təhlil etdiyimiz əsər altı hissədən ibarətdir və ilk baxışdan onların ardıcıllığı ənənəvi süita quruluşunu xatırladır. Diqqət yetirdikdə isə məlum olur ki, əsər boyu A.Dadaşov təmkinli templərə (Maestoso, Andantino, Con moto, Moderato, Adajio) və yalnız III hissədə Allegretto tempini istifadə edir. Şübhəsiz, bəstəkar bilərək əsərini "Pastoral süita"sı adlandırır. Onun musiqisini səciyyələndirən olduqca zərif və yumşaq səslənən lirik başlanğıcdır ki, o, birmənalı olaraq əsərin məzmun və musiqi dilinin orijinallığını müəyyənləşdirir. Başqa sözlə desək "Pastoral süita"sı sırf lirik əsərdir və bəstəkar burada öz lirik imkanlarını böyük zövq, incəlik və əsl ustalıqla çatdırmış olur. Maraqlıdır ki, lirik xarakterli hissələrin ardıcıllığında hər bir fərdi xırdalıq qabarıq şəkildə özünü büruzə verir.

Diqqəti cəlb edən cəhət kimi bəstəkarın seçdiyi orkestr tərkibidir. Xüsusi vurğulamaq istərdik ki, A.Dadaşov sözün tam mənasında orkestri sevən və gözəl hiss edən bəstəkarlardandır və seçdiyi hər bir tərkibdən asılı olmayaraq onu xüsusi bacarıqla istifadə edir. Bu baxımdan "Pastoral

süita"sının partiturası olduqca səciyyəvidir. Burada tam şəkildə təqdim olunan simlilərlə yanaşı bir ağac nəfəsli – fleyta piccolo və üç zərb aləti - campanelli, vibrafon və arfa istifadə olunur. Beləliklə, bəstəkar çox yığcam və şəffaf səslənən, işıqlı və zərif tembrlərdən ibarət olunan orkestr tərkibini seçir və sözsüz ki, bu seçim əsərin ümumi səslənməsini, onun emosional mühitinin incəlikliyini və kövrəkliyini ilk nömrədən başlayaraq finala qədər qoruyub saxlamış olur. A.Dadaşovun "Pastoral süita"sı onun ənənəviliyə orijinal yanaşmasını təsdiq edən parlaq nümunəsidir. Bəstəkar süita janrının əsas cəhəti olan silsiləliyi qəbul etsə də, onu tam fərqli şəkildə təqdim edir. Əsər altıhissəli silsilə kimi tərtib olunsa da, burada faktiki olaraq hissələr arasında təzadlıqdan danışmaq olmur.

A.Dadaşov süitanın qədim zamanlardan istifadə olunan və bu günə qədər ən sadə və əsas şərti kimi qorunub saxlanan hissələr arasında temp təzadlığını, demək olar ki, pozur. "Pastoral süita"nın yalnız üçüncü hissəsi Allegretto tempində verilir, onun qalan beş hissəsi birmənalı olaraq çox sakit, təmkinli tempdə səslənirlər. Odur ki, bu silsilədə hissələr arasında temp təzadlığının olmamasını qeyd etmək olar.

Bunun məntiqli davamı kimi silsilənin istər-istəməz məzmun, obraz aləminin birmənalığı diqqətdən kənarda qalmır. Məzmunla bağlı onu da qeyd etmək lazımdır ki, A.Dadaşov lirik başlanğıcını xüsusi həssaslıqla və müxtəlif çalarlarla təqdim edir. Odur ki, "Pastoral süita"nın lirik hissələri böyük zövqlə işlənilib və bir-birindən fərqlənirlər.

"Pastoral süita"nın hissələrini xarakterizə edən forma yığcamlığı qeyd olunmalıdır. Bəstəkar silsilədə əsasən sadə üçhissəli yaxud ikihissəli formaları istifadə edir. Şübhəsiz, A.Dadaşov kiçik formanı gözəl hiss edir və onu bacarıqla istifadə edir. O, hər bir kiçik həcmli əsərində çox dəqiq düşünən və intizamlı müəllif kimi çıxış edir və bu baxımdan "Pastoral süita"nın hər bir ayrı hissəsi dediyimizin çox gözəl illüstrasiyası kimi təqdim oluna bilər.

Rəngarənglik və fərqlilik təhlil etdiyimiz silsilənin musiqi dilini də xarakterizə edir. Bəstəkar üçün musiqi dilin hər bir xüsusiyyəti olduqca əhəmiyyətli və vacibdir. Eyni zamanda onun çox sevdiyi bəzi dil incəliklərini vurğulamaq olar ki, onlar bəstəkar üçün həm xüsusi məna daşıyır, həm də onun üslubunu xarakterizə edən mühüm cəhətdir.

Bəstəkarın melodik dilində ümumiyyətlə sekunda intonasiyası xüsusi rol oynayır və yalnız bu intonasiyanın müxtəlif yollarla istifadəsi onun əsl ustalığını çox gözəl əks etdirir. A.Dadaşov "Pastoral süitası"nın hər

hissəsində ona uyğun olan musiqi dilini tapır və bununla hər hissənin və bütövlüklə silsilənin özünəməxsusluğu əldə olunur.

A.Dadaşovun kamera orkestr musiqisində süita ilə yanaşı digər ənənəvi janrlara da rast gəlmək olar. Buna misal olaraq bəstəkarın yaradıcılığında yer tutan "**Konsertino**" və "**Divertisment**" əsərlərini göstərmək olar. Bəstəkar tərəfindən yaranan bu əsərlərə maraq ənənəvi janrların traktovkası ilə bağlıdır. Bildiyimiz kimi, A.Dadaşov hər müraciət etdiyi ənənəni özünəməxsus şəkildə təqdim edir. Odur ki, yuxarıda qeyd olunan əsərlərin bu ya digər ənənə ilə (ənənələrlə) bağlılığı həmişəki kimi, maraqlı və önəmli ola bilər.

Konsertino və divertisment musiqi tarixindən yaxşı tanınan janrlardır. Hər janrın özünəməxsus tarixi var və bu tarixin birmənalılıqdan uzaq olmasını da qeyd etmək olar. Xüsusi olaraq vurğulamaq istərdik ki, konsertino və divertisment XX əsr musiqisində çox geniş yer tutur və onların istifadəsində yeni imkanlar özünü büruzə verir.

Konsertino kiçik konsertdir və konsertdən fərqli olaraq adətən silsilənin ümumi yığcamlığı və daha kiçik orkestr tərkibin istifadəsi baş verir. XX əsr musiqisində konsertino bir janr kimi olduqca geniş və rəngarəng şəkildə istifadə olunur. Misal üçün İ.Stravinski "Konsertino" əsərini simli kvartet üçün yazır, D.Şostakoviç isə eyni adlı kompozisiyanı iki fortepiano üçün nəzərdə tutur.

A.Dadaşovun yaradıcılığında iki "Konsertino" nümunəsi var. Müraciət etdiyimiz bəstəkarın kamera orkestri üçün yazılan "Konsertino" №1 (C-dur) 1987-ci ilə təsadüf edir və 1988- ci ildə ilk dəfə dirijor Eldar Rüstəmovun rəhbərliyi ilə Azərbaycan Dövlət Kamera orkestrinin ifasında səslənib.

A.Dadaşov öz "Konsertino"sunu ənənəvi janrın qaydalarına riayət edən və zövqlə yazılan üçhissəli silsilə kimi təqdim edir. Əsər boyu burada instrumental silsiləyə xas olan bir sıra ənənəvi cəhətlərlə üzləşmək olar. İlk növbədə "Konsertino"nun ənənəvi silsilə quruluşu qeyd olunmalıdır ki, burada kənar hissələr (birinci hissə - Allegro və üçüncü hissə - Allegretto) cəld templi, ikinci hissə isə Andante tempində səslənir.

A.Dadaşovun kamera orkestri üçün yazılan əsərlərin sırasında **"Divertisment"** xüsusi yer tutur. Qeyd edə bilərik ki, əsər 1998-ci ildə yazılıb və onun ilk ifası ABŞ-da, Vaşinqtonda dirijor Rauf Abdullayevin rəhbərliyi altında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət simfonik orkestrin ifasında səslənib və dinləyicilər tərəfindən rəğbətlə qarşılanmışdır. Bakıda bu əsər həmin tərkibdə 2000-ci ildə ifa olunub.

Təbii ki, bu janr dövrün aparıcı janrları olan simfoniya yaxud sonata ilə müqayisə oluna bilməz. Fərqli bədii məna kəsb edən bu janrların taleyi də tam fərqlidir. Xüsusi olaraq vurğulamaq istərdik ki, divertisment hər zaman məzmun baxımından çox sadə, məişət musiqi janrları ilə sıx bağlı olub. Maraqlıdır ki, XIX əsr musiqisində divertisment balet süita mənasını daşıyır və balet tamaşasında böyük və müxtəlif xalq rəqslərindən ibarət olunan səhnəni təsvir edir.

Təqdim etdiyimiz əsərdə instrumental konsertin bir çox cizgiləri özünü büruzə verir və burada zərif orkestr yazısı, tembrlərin "oyunu", virtuozluq kimi cəhətlər qeyd olunmalıdır. Əsər sanki dinləyici qarşısında canlanan yığcam teatr tamaşasıdır və göstərilən bütün mövzular olduqca parlaq və yadda qalandırlar. Məhz buna görə silsilənin teatrlaşması diqqəti cəlb edən bir vacib amil kimi çıxış edir.

"Divertisment" musiqisini dinləyərkən sanki keçmişin müasirliklə, ənənəviliyin müəllif özünəməxsusluğu ilə, nəhayət, Qərb və Şərqin "toqquşmasının" şahidi olursan. Tanınmış rus tədqiqatçısı A.İvaşkin müasir sənətkarın tarixə üz tutmasını şərh edərək maraqlı fikir irəli sürür ki, "gedən nəsillərin mədəniyyət təcrübəsinə müraciət keçmişlə birbaşa kontakt deməkdir, onların yaddaşının mənimsəməsidir".[5]

Bu fikrə əsaslanaraq demək olar ki, A.Dadaşovun "Divertisment"ində XVIII əsrin musiqisinin bəzi cizgiləri öz əksini tapır. Xüsusi vurğulamaq istərdik ki, bəstəkar "keçmişə" kor-təbii yanaşmır və müraciət etdiyi hər ənənəni, hər cizgini böyük ustalıqla mənimsəmiş olur. Məhz buna görə "Divertisment"i (D-dur) sırf neoklassik ruhda yazılan əsər kimi qəbul etmək olmaz. Əksinə, əsəri səciyyələndirən müasir musiqi dil imkanlarıdır ki, onların vasitəsilə A.Dadaşov çox maraqlı, yığcam və sürətlə inkişaf edən silsiləni təqdim etmiş olur. Şəffaf orkestr yazısı, aydın musiqi dili, musiqi tematizminin sadəliyi əsərdə izlənilən xüsusiyyətlərdir və bəstəkarın burada həm avropa musiqi ənənələrinə, həm də milli musiqi cizgilərinə dayaqlanması xüsusi əhəmiyyət kəsb edir.

Bu fəsildə təhlil olunan əsərlər ikihissəli yaxud üçhissəli silsilələrdir, yalnız "Pastoral süitası" altı hissəli kompozisiyadır. Bütün bu nümunələrdə A.Dadaşovun bir bəstəkar kimi ənənəvi janrlara nümayiş etdiyi yanaşma gözə çarpır, eyni zamanda onun hər təqdim etdiyi əsərdə bu ya digər janra fərdi baxışı da aydın olur. Şübhəsiz, hər əsərin fərdiliyi və özünəməxsus-

---

[5] Ивашкин А. В.Беседы с Альфредом Шнитке. М., Классика – XXI, 2003, с.9

luğu bəstəkarın istifadə etdiyi palitranın genişliyi və rəngarəngliyindən xəbər verir ki, bunu əsərlərin həm obraz məzmununda, həm də musiqi dil xüsusiyyətlərinin istifadəsində qeyd etmək olar.

Bəstəkar musiqinin ifasına teatrallığı daxil etməklə dinləyicini bu prosesə cəlb edərək onun ifa prosesinin iştirakçısına çevirir.

**Dissertasiyanın III fəsli "Azər Dadaşovun yaradıcılığında kamera ansambl və konsert əsərləri" adlanır. Bu fəsil 2 bölmədən ibarətdir:**

**3.1. Azər Dadaşovun kamera-ansambl əsərlərinin bəzi xüsusiyyətləri.**

A.Dadaşovun kamera-instrumental yaradıcılığında müxtəlif simli və nəfəsli alətlər üçün yazılan əsərlərə rast gəlmək olur. Bəstəkarın bu əsərlərini iki qrupa bölmək olar ki, burada solo alətlər üçün nəzərdə tutulan əsərlərlə yanaşı sırf ansambl xarakterli nümunələr də yer alır.

Burada əsasən kiçik həcmli pyeslər gözə çarpır və onlardan violonçel və fortepiano üçün "Adajio" (1970), violini və fortepiano üçün iki pyes (1974), qoboy və fortepiano üçün üç romans (1991, əsər Azər Abdullayevə həsr olunub), violonçel və fortepiano üçün "Xatirələr" (1999), fleyta və fortepiano üçün "Şuşam" adlı lirik pyes (2010), trombon və fortepiano üçün "Marş" (2011), violini və fortepiano üçün "Daimi işıq" adlı kompozisiya (2011) qeyd olunmalıdır.

A.Dadaşovun kamera-ansambl əsərləri olduqca diqqətəlayiqdirlər. Şübhəsiz ki, burada ilk maraq doğuran məsələ bəstəkarın alət seçimidir və güman etmək olar ki, o, ürəyinə yatan alətlərə müraciət edir. Məlumdur ki, A.Dadaşov öz orkestr əsərlərində çox ifadəli mövzuların solo səslənməsini adətən fleytaya yaxud qoboya tapşırır. Hər alətin "dilinə" bələd olan bəstəkar onun bütün texniki və tembr-ifadə imkanlarını əsl ustalıqla istifadə edir. Müxtəlif simli, nəfəs, hətta zərb alətlərinə əsərlər yazmaqla A.Dadaşov ilk növbədə öz yaradıcılıq məqsədlərini gerçəkləşdirir. Eyni zamanda onun bu yaradıcılıq səyləri alqışlanmalıdır, çünki bəstəkar öz müasir üslublu əsərləri ilə Azərbaycan ifaçılarının repertuarını xeyli genişləndirmiş olur. Yeri gəlmişkən onu da qeyd edək ki, A.Dadaşovun bütün kamera-ansambl əsərləri ifa olunub və bu baxımdan o, sözün tam mənasında xoşbəxt müəllifdir.

Bəstəkarın qələmə aldığı "Klarnet və fortepiano üçün Sonata"sı 1987-ci ilə təsadüf edir və tanınmış klarnet ifaçısı Elxan Babayevə həsr olunur. Əsər ilk dəfə 1988-ci ildə Elxan Babayevin ifasında Bakıda səslənib və rəğbətlə qarşılanıb.

Söz açdığımız sonata A.Dadaşovun yaradıcılığında klarnet üçün yazılan yeganə əsərdir və məhz bu fakt onun dəyərini istər-istəməz artırmış olur. İkinci marağa səbəb olan alət seçimini və onun traktovkasını

göstərmək lazımdır. Müəyyən alətə müraciət edən bəstəkar, təbii ki, onun bütün ifaçılıq imkanlarını nəzərdən keçirir və bu biliklərə əsaslanaraq öz əsərini yaradır. A.Dadaşova gəldikdə isə onu demək olar ki, o, yüksək peşəkar olduğunu Klarnet sonatasında bir daha nümayiş etdirir. Alətin (klarnetin) istifadəsi ilə bağlı onu əlavə etmək olar ki, bəstəkar ona fərdi yanaşır və xüsusi incəliklə və zövqlə səsləndirir.

"Klarnet və fortepiano üçün sonata"da hər iki alət heç də bərabər göstərilmir və əsər boyu klarnetin üstünlüyü aydın hiss olunur. Maraqlıdır ki, sonatanın bütün mövzularını ilk səsləndirən klarnetdir və ümumilikdə onun mövzusu çox sərbəst və virtuoz şəkildə təqdim olunur.

A.Dadaşov "Klarnet və fortepiano üçün Sonata"nı yığcam, üçhissəli silsilə kimi təqdim edir və seçdiyi alətin bütün texniki, virtuoz və tembr-ifadə imkanlarını göstərməyə çalışır. Əgər birinci hissənin musiqisində klarnet aparıcı rolda çıxış edirsə, ikinci hissənin musiqisində hər iki alət bərabər hüquqludur və bununla bəstəkar müraciət etdiyi alətlərə obyektiv münasibətini göstərmiş olur.

Azərbaycan musiqisinə xas olan lad xüsusiyyətləri, bir çox xromatizmlər əsərin milli köklərlə bağlılığını təsdiqləyir, bu da çox təbiidir, çünki A.Dadaşov milli musiqimizin dəyərlərinə istinad edən bir bəstəkardır və hər bir əsərində milli musiqi ilə bağlılığını nümayiş etdirir.

A.Dadaşovun kamera-ansambl musiqisində **"İçəri şəhər" adlı nəfəsli kvinteti** xüsusi yer tutur. Bu əsərin qeyri-adiliyi, şübhəsiz ki, ilk növbədə onun tərkibi ilə bağlıdır və burada dörd ağac nəfəsli – fleyta, qoboy, klarnet, faqot və bir mis nəfəsli – valtorna kimi alətlər istifadə olunur.

Ümumiyyətlə, nəfəsli alətlərin iştirakı ilə olan əsərlərin yazılması Azərbaycan musiqisi üçün o qədər də xas deyil və hər yazılan əsər nadir nümunəyə çevrilir. Bu baxımdan A.Dadaşovun "İçəri şəhər" nəfəsli kvinteti sözün tam mənasında diqqəti cəlb edən orijinal əsərdir. Onu da əlavə edək ki, qeyd etdiyimiz əsər faktiki olaraq bəstəkarın çox az istifadə etdiyi musiqi sahəsinin nümunəsidir. Bu baxımdan da əsər seçilir və ona olan marağı artırır.

Əsərin ilk ifası 1991-ci ildə M.Ağamalızadənin rəhbərlik etdiyi ansamblın ifasında baş verib. Beş nəfəs aləti üçün nəzərdə tutulan bu əsər, şübhəsiz, diqqəti cəlb edir, çünki Azərbaycan musiqisində bu cür tərkibli əsərlərin yaranması nadir hadisəyə çevrilir. Bəstəkar bu əsərində həmişəki kimi müraciət etdiyi alətlərin təbiətinə tam uyğun olan, olduqca orijinal və özünəməxsus şəkildə yazılan musiqi ilə tanış edir. Bir daha onu da qeyd edək ki, yaradıcılığının hər bir sahəsində və müraciət etdiyi hər bir janrda o, əsərin təbiətinə tam cavab verən bir musiqi aləmini açmış olur.

Təhlil etdiyimiz nəfəsli kvintet dördhissəli əsər kimi işlənib və ilk baxışdan o ənənəvi silsiləni xatırladır. Onun kənar hissələri cəlb templi, ikinci hissə zarafat xarakterli, üçüncü hissə isə zərif, təmkinli, lirik hissə kimi təqdim olunur. İlk öncə silsilənin yığcamlığı və bütün alətlərin eyni səviyyədə istifadə olunması gözə çarpır. Bununla bağlı olaraq kvintetin musiqi obrazlarının xarakterik cəhətlərlə səciyyələndirildiyini də bəri başdan vurğulamaq olar. Onu da əlavə edək ki, silsilənin ilk xanələrindən məlum olur ki, söhbət müasir musiqi dilində yazılan əsərdən gedir.

Ümumiyyətlə, "İçəri şəhər" adlı nəfəsli kvintet böyük zövqlə yazılan əsərdir. Bildiyimiz kimi, kiçik həcmli musiqinin məzmununu mənalı və məntiqli şəkildə çatdırmaq olduqca çətindir. Buna nail olmaq üçün bəstəkardan ölçüb-biçilmiş, dəqiq dəst-xətt tələb olunur. Təbii ki, burada bəstəkarın üslub saflığı xüsusi əhəmiyyət kəsb edən başlanğıc kimi çıxış edir. Şübhəsiz, A.Dadaşov bir bəstəkar olaraq bu kimi xüsusiyyətlərə cavab verir və onun üslub saflığı çoxdan hamıya yaxşı məlumdur.

Söz açdığımız nəfəsli kvintetə gəldikdə bir daha qeyd etməliyik ki, o sanki bir nəfəsə səslənən, olduqca mənalı və maraqlı təəssürat yaradan bir silsilədir. Əsərə proqramlı adın verilməsi, yəqin ki, təsadüfi deyil. Güman etmək olar ki, Bakının İçəri şəhəri burada yaşayan və yaşamayan üçün hər zaman doğma və əzizdir. Təbii ki, burada yerləşən abidələr və evlər, meydan və məscidlər, dar küçələr və dalanlar, bir sözlə oranın qeyri-adi mühiti, sanki keçmişlə bağlı olan abu-havası hər zaman aydın hiss olunur, sevilir və qəlbimizdə gözəl və fərəh hissləri oyadır. Ola bilər ki, həmin bu təəssüratı A.Dadaşov "İçəri şəhər" adlı nəfəsli kvintetində əks etdirməyə çalışır. Əsərin yığcamlığı, faktiki olaraq dörd miniatürdən ibarət olması sanki bəstəkarın qəlbində yaşayan "İçəri şəhər"lə bağlı olan təəssüratlarından irəli gəlir.

Əsərin yığcamlılığını bəstəkarın müraciət etdiyi nəfəsli alətlərdən ibarət olan tərkib ilə də əlaqələndirmək olar. Təbii ki, o, hər alətin ayrılıqda və eyni zamanda bütün tərkibin ifaçılıq imkanlarını nəzərə almalı idi və bununla bağlı bir çox texniki, virtuoz və tembr-ifadə məsələlərini həll etməli idi. A.Dadaşov çox çevik düşünən bəstəkardır və onun maraq dairəsi hər zaman öz genişliyi ilə seçilir. O, müxtəlif tərkiblər, müxtəlif alətlər üçün həvəslə yazan müəllifdir və "İçəri şəhər" nəfəsli kvintet dediyimizin bariz nümunəsi kimi çıxış edir.

**3.2. A.Dadaşovun yaradıcılığında instrumental konsertlər** adlanır. İnstrumental musiqidə çox geniş istifadə olunan solo konsert janrı A.Dadaşovun yaradıcılığında beş nümunə ilə təqdim olunur. Bəstəkar

yaradıcılığının müxtəlif mərhələlərinə aid olan bu əsərlər fərqli alətlər üçün yazılıb ki, burada fleyta, viola və üç fortepiano konsertini qeyd etmək olar.

İnstrumental konsertin, bildiyimiz kimi, zəngin tarixi var və hər dövrün bəstəkarı bu janrda sanki özünü sınamağa çalışırdı. Ən maraqlısı odur ki, instrumental musiqinin aparıcı janrlarının inkişafına diqqət yetirdikdə məlum olur ki, simfoniya yaxud fortepiano sonatası, çox ciddi üslub dəyişikliklərinə məruz qaldığı zaman solo konsert öz ənənəvi simasını və mahiyyətini tam qoruyub-saxlamış olur. Bunu silsilənin ümumi, adətən üçhissəli quruluşunda, hissələrin eyni qayda ilə - "cəld - ağır - cəld" sıralanmasında, parlaq və virtuoz konsert üslubunda, solist və orkestrin yarışında aydın görmək olar.

A.Dadaşovun instrumental konsert janrına olan münasibəti olduqca özünəməxsusdur və burada ənənəvi cizgilərlə yanaşı daha çox müəllifin sərbəstliyi diqqəti cəlb edir. Onu da nəzərə almaq lazımdır ki, hər konsert öz fərdi yazısı ilə seçilir və burada heç bir ümumi nəticədən danışmaq olmaz. Bəstəkarın konsertlərini birləşdirən yalnız kompozisiya yığcamlığı və simfonik orkestr yerinə kamera orkestrin istifadəsidir.

A.Dadaşovun hər bir konsert nümunəsinin öz yaranma tarixçəsi var ki, bu da, çox təbii olaraq, onun ümumi simasını müəyyənləşdirir. Bəstəkarın ilk konsert nümunələri keçən əsrin 70-ci illərin əvvəllərinə təsadüf edir və hər iki konsertin yazılmasının səbəbkarı dirijor N.Rzayev olmuşdur.

Fleyta və kamera orkestri üçün "Konsertino" 1973-cü ildə qələmə alınıb və həmin ildə Bakıda M.Ağamalızadə (solist) və Azərbaycan Dövlət Kamera orkestrin ifasında (dirijor N.Rzayev) ilk dəfə səslənib. "Konsertino" ilə tanış olduqda məlum olur ki, A.Dadaşov instrumental konsertin çox səciyyəvi xüsusiyyətlərinə istinad edir. İlk növbədə bu ənənəvilik əsərin ümumi quruluşunda özünü bildirir ki, bəstəkar üçhissəliyə əsaslanır və üstəlik onu çoxdan qəbul olunmuş qaydalara riayət edərək çatdırır. Odur ki, "Konsertino"nun kənar hissələri cəld templi, onun orta hissəsi isə mülayim templidir. Nəhayət, konsertin tematizminə gəldikdə onu demək lazımdır ki, bəstəkar onu hər hissəyə uyğun şəkildə təqdim edir.

"Konsertino"nun musiqisində bəstəkarın ənənəvi janra özünəməxsus yanaşması daha maraqlı və mənalı olduğuna görə diqqətimizi cəlb etdi. İlk öncə onu vurğulamaq istərdik ki, əsərin əsl qəhrəmanı solistdir; silsilə boyu fleytanın üstünlüyü öz təsdiqini tapır, orkestrin rolu isə çox məhdud və birmənalı olaraq solistin bütün virtuoz texniki və tembr-ifadə imkanlarının nümayişinə yönəlir. Onu da əlavə edək ki, bəstəkar əsər boyu kiçik həcmli orkestrini tam şəkildə səsləndirmir, orkestrin tutti ifası yalnız finalın

kodasında verilir. Odur ki, "Konsertino"nun partiturası olduqca şəffaf və qrafik yazısı ilə seçilir.

Təhlil etdiyimiz əsərin musiqi dilinə nəzər yetirdikdə burada da bəstəkarın bir çox məqamlarda sərbəstliyə yol verilməsini aydın görmək olur.

"Konsertino" tonallığı olmayan əsərdir və ümumiyyətlə, tonal faktoru bəstəkar üçün burada heç bir rol oynamır. Bunun məntiqli davamı kimi, təhlil etdiyimiz əsərdə ənənəvi harmonik dilin istifadəsindən də danışmaq qeyri-mümkündür.

A.Dadaşovun yaradıcılığında üç fortepiano və kamera orkestri üçün yazılan konsertləri son illərin məhsuludur. Bu konsertlərin yaranması və bədii dəyəri müxtəlif olduğuna görə, onları bir mənalı qəbul etmək olmaz. Təbii ki, bu konsertlərin arasında bəstəkarın 2004-cü ildə yazdığı Birinci fortepiano konserti öz gözəlliyi ilə seçilir. İkinci və Üçüncü konsertlərin gənc ifaçıların müsabiqəsi üçün yazılması onların ümumi xarakterini müəyyənləşdirir. Hər müsabiqənin tələblərinə cavab verən konsert əsərinin yaranması A.Dadaşovun bu sahədə təcrübəsindən xəbər verir.

Birinci fortepiano konserti bəstəkarın nisbətən bu yaxınlarda yazılmış əsərləri sırasına daxildir. A.Dadaşovun bu əsəri birhissəli şəkildə təqdim olunub və bir sıra xüsusiyyətlərinə görə klassik konsert janrı ilə ziddiyyət təşkil edir. Xüsusi vurğulamaq lazımdır ki, Fortepiano konsertinin iki redaksiyası mövcuddur və elmi işimizdə təhlil etdiyimiz əsərin ikinci redaksiyasına müraciət edirik. Hər iki redaksiyanı fərqləndirən əsas cəhət bundan ibarətdir ki, ikinci redaksiyada bəstəkar "Qəmərim" xalq mahnısından istifadə edir və məhz xalq mahnısının konsertin musiqisinə daxil olması ona zərifliyi, milli koloriti daxil etmiş olur.

Fortepiano konserti özünün forma və məzmununa görə heç də mürəkkəb deyil. Belə ki, quruluşuna görə təhlil etdiyimiz nümunə aydın və sadədir, lakin bu sadəliyin, ciddiliyin arxasında bəstəkarın incə və zərif niyyəti, məntiqli və simmetrik kompozisiya quruluşunu qeyd etmək çox vacibdir.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur və əldə olunan nəticələr qeyd olunur. A.Dadaşovun kamera-instrumental musiqisi onun çoxşahəli yaradıcılığının çox vacib, üslub axtarışları baxımından son dərəcə əlamətdar və dəyərli sahəsidir.

Ümumiyyətlə, A.Dadaşovun kamera-instrumental musiqisi ilə bağlı olan bütün nəticələr ənənə və novatorluq kontekstindən çıxarılmalıdır. Bəstəkarın yaradıcılığında özünü büruzə verən hər məsələ istər-istəməz ənənə və novatorluq anlayışı ilə "toqquşur". Onu da qeyd etməliyik ki, ümumiyyətlə, A.Dadaşov ənənəni sevən və yaradıcılığı boyu ona hörmət

bəsləyən bəstəkarlardandır. Unutmaq olmaz ki, bəstəkar Q.Qarayevin tələbəsi kimi ciddi və peşəkar məktəb keçmiş və onun mənasız eksperimentlərə qarşı möhkəm immuniteti olub və bu günün özündə də var.

Musiqi tarixindən yaxşı məlum olan və geniş yayılan janra (janrlara) müasir bəstəkar tərəfindən müraciət etməsi, təbii ki, hər zaman böyük maraqla qarşılanır. A.Dadaşov da öz yaradıcılığında hər janra fərdi yanaşır və bununla bağlı olaraq onun özünəməxsus traktovkasından danışmaq olar. Azərbaycan bəstəkarı silsilə xarakterli janrları ənənəyə uyğun şəkildə təqdim edir. Misal üçün "Konsertino", "Divertisment" və fleyta üçün "Konsertino" üçhissəli silsilə kimi işlənilib və hər silsilə ənənəvi quruluşda - cəld-ağır-cəld təqdim olunur.

"Pastoral süita" da silsilə kimi təqdim olunur, lakin altıhissəli silsilədə beş hissə eyni olan ağır tempdə səslənir. Bununla bəstəkar süita janrın ən vacib və gözə çarpan hissələr arasında temp təzadlığı ənənəsini pozmuş olur və bununla silsilədə geniş məna daşıyan və zövqlə təqdim olunan zəngin lirik başlanğıc hökm sürür.

A.Dadaşovun ənənəvi sonata formasına olan münasibəti də çox səciyyəvidir. Bəstəkar instrumental silsiləsinin birinci hissəsini ənənəyə uyğun olaraq sonata formasında təqdim etsə də, onu özünəməxsus və çox sərbəst şəkildə təqdim edir. Belə ki, A.Dadaşov sonata formasının iki bərabər hüquqlu mövzulardan ibarət olunması ənənəsinə bəzi hallarda əsaslanmır və buna misal kimi "Konsertino"nun birinci hissəsini göstərmək olar ki, burada əsas partiya mövzusunun tam üstünlüyü gözə çarpır.

Ümumiyyətlə, A.Dadaşov çox zaman kamera musiqi nümunələrində sonata formasını sanki yüngülləşmiş versiyada çatdırır. Belə ki, sonata forması işlənməsiz ola bilər ("Konsertino" – I hissə) yaxud köməkçi mövzunun ekspozisiya və reprizada eyni tonallıqda göstərilməsi ("Divertisment" – I hissə, köməkçi partiya h-moll) mümkündür. Buna əlavə olaraq sonata formasının xüsusi yığcamlığı, iki mövzu – əsas və köməkçi partiyalar arasında təzadlığın olmaması kimi cəhətləri də göstərmək olar.

Qeyd etdiyimiz sərbəstlik bəstəkarın instrumental konsertlərində özünü daha qabarıq şəkildə göstərmiş olur. İlk öncə qeyd olunmalıdır ki, A.Dadaşov öz konsertlərində solist-orkestr "münasibətlərini" solistin xeyrinə həll edir. O, sözün əsl mənasında solisti sevən bəstəkardır və məhz buna görə A.Dadaşovun konsertlərində solist və orkestr yazısından, parlaq və əsl virtuoz ifaçılıq üslubundan danışmaq qeyri-mümkündür.

Dissertasiyada təhlil olunan əsərlərin sırasında tonal və atonal musiqi əsərləri var və bəstəkar bu məsələyə olduqca təbii yanaşır. Beləki, onun tonal

və atonal əsərlərinin arasında heç bir ciddi fərqi görmək olmur: bəstəkarın yazı dəsti-xətti eyni olduğuna görə onun tonal və atonal musiqisi eyni dərəcədə məntiqli inkişaf edən, forma baxımından dəqiq və aydın və məzmununa görə tamamlanmış olur. Xüsusi vurğulamaq istərdik ki, A.Dadaşov hər əsərinin musiqi dilini onun məzmunu ilə əlaqəli olaraq müəyyənləşdirir və məhz buna görə onun yaradıcılığında "Konsertino" və "Divertisment" kimi klassik ruhlu silsilələr və eyni zamanda "Lugubre və Scherzo", "Adajietto və Scherzino" kimi üslub baxımından mürəkkəb olan əsərlər yaranır.

A.Dadaşov yaşadığı dövrü unutmayaraq öz melodik dilində adətən qısa, yadda qalan, çox xarakterik, iti intonasiyalara müraciət edir. Misal kimi A.Dadaşovun "Konsertino" və "Divertisment" adlı əsərlərini göstərmək olar ki, burada klassik sayağı və milli melodik cizgilərin birləşməsini qeyd etmək olar. "Scherzino" pyesində bəstəkar mikrotematizmə əsaslanaraq geniş məna daşıyan virtuoz yazı texnikasını çox parlaq şəkildə nümayiş edir.

Onu da qeyd etməliyik ki, qısa motivin istifadəsi, onun variantlı şəkildə inkişaf olunması Azərbaycan xalq musiqisinə xas olan cəhətlərdir. Odur ki, nə qədər ki, qısa motivin və ya müəyyən interval intonasiyasının rolu milli və avropa musiqisində fərqli olsa da, bəstəkar bundan yararlanaraq onu öz yaradıcılıq ideyasına tabe edir.

Nəhayət, A.Dadaşovun musiqisində uzun və ifadəli mövzuların istifadəsinə toxunmaq istərdik. Fleyta konserti və klarnet sonatasında bəstəkar belə mövzularla bizi tanış edir. Klarnet sonatasının mövzuları mahnıvari və yaxud rəqsvari xarakter daşıdığına görə Azərbaycan xalq musiqisinə çox yaxındırlar.

A.Dadaşovun musiqisinin inkişafına gəldikdə burada linear və polifonik texnikanın istifadəsinin böyük rolunu qeyd etməliyik. Bəstəkar musiqidə işlətdiyi bütün səsləri olduqca sərbəst istifadə edir. Odur ki, onun əsərlərində, hətta harmonik dilinə əsaslanan əsərlərində də akkordlar yerinə səslər düzümü istifadə olunur. Dediyimizi əks etdirən nümunə kimi "Divertisment"i göstərə bilərik.

A.Dadaşovun orkestr dili ən yüksək tərifə layiqdir. Qeyd olunduğu kimi, təhlil olunan bütün əsərlərində bəstəkar çox yığcam olan kamera orkestrinə müraciət edən və bu kiçik tərkibli orkestrin istifadəsində son dərəcə ustalığını və məharətini parlaq şəkildə açmış olur. Orkestrin ayrı-ayrı alətlərinin solo çıxışları, solo və müşayiət səslərə bölünməsi, tam tərkibdə tutti ifası – bir sözlə bütün ifaçılıq üsullarını A.Dadaşov xüsusi zövqlə və bacarıqla istifadə edir.

Bəstəkar daima öz orkestrinin qarşısında müxtəlif ifaçılıq məsələlərini ortaya qoyur və onların öhdəsindən bacarıqla gəlir. Bununla bağlı olaraq bəstəkarın orkestrində sonor texnikasının xüsusi rolu qeyd olunmalıdır. Klasterlərin istifadəsi yaxud bir çox səslərin böyük məsafədə səslənməsi kimi çox effektli ifaçılıq üsulları təbii ki, bəstəkarın orkestr dilinə xüsusi gözəlliyi, qeyri-adi çalarları daxil edir və əsərin yaranmasında və inkişafında çox vacib tembr dramaturji tapıntı kimi istifadə olunur. Bu baxımdan "Lugubre və Scherzo", eləcə də, "Adajietto və Scherzino" silsilələri çox maraqlı və səciyyəvi əsərlərdir.

Son olaraq onu da vurğulamaq istərdik ki, A.Dadaşov müasir dövrün sənətkarı kimi geniş yaradıcılıq potensialına malikdir və o, bu geniş yaradıcılıq imkanlarını böyük həssaslıqla və ustalıqla istifadə edir. Bəstəkarın kamera-instrumental musiqisi onun əhatəli yaradıcılığının mühüm hissəsi olaraq onun ümumi potensiyalının bir təzahürüdür. Bu baxımdan A.Dadaşovun kamera-instrumental musiqisi yalnız onun yaradıcılıq uğuru deyil, bu yaradıcılığı ümumi Azərbaycan musiqisinin uğuru kimi qəbul etmək olar.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**


1. Основные черты камерной музыки Азера Дадашева. // "Поиск" elmi pedaqoji jurnal, №4 (1/2011) Qazaxıstan – 2011, s. 105-209

2. Azər Dadaşovun kamera orkestri üçün yazılmış "Divertisment"in bəzi xüsusiyyətləri. / XVI Respublika elmi konfrans, Bakı - 2012, (konfrans materialı) s. 355-358

3. Azər Dadaşovun "Konsertino"sunun bəzi xüsusiyyətləri haqqında. // Təsviri və dekorativ - tətbiqi sənət məsələləri, №1 (13), Bakı - 2014, s.101-106

4. Azər Dadaşovun "Klarnet və fortepiano üçün sonatası" // "Musiqi dünyası" jurnalı, №4/61, Bakı – 2014, s.71-73

5. Камерно-инструментальные сочинения Азера Дадашева в контексте проблемы Восток – Запад. // «Актуальные проблемы гуманитарных и естественных наук» Elmi nəşrlər jurnalı, №02/61, II hissə, Moskva - 2014, s.311-314

6. About some stylistic features in the chamber music of A.Dadashev in the context of the XX century music. / "Scince, Technology and Higher Education", VI beynəlxalq konfrans (konfrans materialı), s.36-38

7. Azər Dadaşovun kamera yaradıcılığının bəzi xüsusiyyətləri. // "Mədəni həyat" jurnalı №12 (286), Bakı-2014, s.18-20

8. Azər Dadaşovun "İçəri şəhər" adlı nəfəsli kvinteti. // "Müasir mədəniyyətşünaslıq" (elmi, metodiki, publisistik jurnal), №1 (15), Bakı - 2014, s. 73-76

9. Azər Dadaşovun kamera musiqisinə bir baxış. // "Mədəniyyət+Az" (Mədəni həyat) jurnalı №3, Bakı - 2015, s.98-99

**Минаханым Исмаил гызы Бабаева**

## Стилистические особенности камерной музыки Азера Дадашева

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, двух разделов, заключения, списка использованной литературы.

**В первой главе «Творчество Азера Дадашева в контексте современной азербайджанской музыки»** рассматриваются яркие стилистические тенденции камерной музыки ХХ века и раскрывается портрет композитора на этом фоне.

**Во второй главе «Камерные оркестровые сочинения Азера Дадашева»** анализируются следующие работы композитора: "Lugubre и Scherzo", "Adajietto и Scherzino", "Пасторальная сюита", "Концертино" и "Дивертисмент" и последовательно рассматриваются стилистические черты этих произведений.

**Третья глава диссертации «Камерный ансамбль и концертные произведения Азера Дадашева»** состоит из двух разделов. 3.1. представлен Сонатой для кларнета и фортепиано и духовым квинтетом «Ичери шехер». Кларнетовая соната-один из редких образцов инструментальной сонаты в азербайджанской музыке. Произведения А.Дадашева привликает внимание своеобразной трактовкой жанра, преобладающей ролью солиста и национально-окрашенным тематизмом. Квинтет духовых интересен трактовкой четырехчастного цикла, где каждая часть представляет собой колоритную зарисовку. 3.2. посвящен «Концертино» для флейты и камерного оркестра, фортепианным концертам композитора.

В **заключении** подводятся итоги проделанной работы, обобщаются стилистические особенности камерной музыки А.Дадашева.

**Minaxanim Ismayil Babayeva**

## Stylistic features chamber music Azer Dadashov

## SUMMARY

The thesis consists of the introduction, three chapters, two divisions, concluission and the list of the used literature.

In the first chapter of Azer Dadashev's "Creativity" in the context of modern Azerbaijani music" are considered bright stylistic trends of chamber music of the twentieth century, and outlines a portrait of the composer on this background .

In the second chapter, "Azer Dadashev's Chamber orchestra works" series analyzes the following works of the composer: "Lugubre and Scherzo", "Adajietto and Scherzino", "Pastoral suite", "Konsertino" and "Divertisment".

The third chapter of the thesis "Chamber ensemble and Concert works of Azer Dadashov " consists of two sections. The first section is presented by Sonata for Clarinet and Piano and Wind Quintet "Icheri Sheher". Clarinet Sonata is one of the rare examples of instrumental sonatas in Azerbaijani music. A.Dadashev's works are noted for their genre, their predominant role of the soloist and the national-colored thematics. Brass Quintet is interesting for its interpretation of the four-part cycle, where each part is a colorful sketch.

The second section is devoted to the "Concertino" for flute and chamber orchestra and piano concertos of the composer.

In conclusion, the total work of the thesis discloses stilistic properties of A.Dadashev's Chamber Music.

Çapa imzalanıb: 15.10.2015.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**
**имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

На правах рукописи

**МИНАХАНЫМ ИСМАИЛ гызы БАБАЕВА**

# СТИЛИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ КАМЕРНОЙ МУЗЫКИ АЗЕРА ДАДАШЕВА

**6213.01 – Музыкальное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по искусствоведению**

**Баку – 2015**